<u>Əlavə: Ölkə inkişafına əməkdaşlıq siyasəti</u>

# Azərbaycan Respublikası üzrə Fəaliyyət Planı

yanvar, 2021-ci il

| | |
|---|---|
| Əsas prinsip (Böyük hədəf) | Davamlı və balanslaşdırılmış iqtisadi inkişafa nail olmaq və iqtisadi fərqlərin aradan qaldırılmasına yönəlmiş ölkə quruculuğuna dəstəyin həyata keçirilməsi |

| | |
|---|---|
| Prioritet sahə 1 (Orta hədəf) | İqtisadi infrastrukturun qurulması |
| İnkişaf məsələsi 1 (Kiçik hədəf)<br><br>İqtisadi infrastrukturun (xüsusən, enerji, nəqliyyat sahəsi üzrə) qurulması | 【Hazırkı vəziyyət və qarşıda duran məsələlər】<br>Elektrik enerjisi və logistik şəbəkənin yaxşılaşdırılması maneəsiz biznes fəaliyyətinin təməli olduğu üçün ölkədaxili və xarici iqtisadiyyatın canlanmasına töhfə verəcək enerji sektoru və nəqliyyat sektorunun insfrastrukturunun qurulması, saxlanması və idarə edilməsi qabiliyyətinin gücləndirilməsinə dəstək göstərmək vacib məsələyə çevrilmişdir.<br><br>【İnkişaf məsələsi ilə bağlı strategiya】<br>Davamlı iqtisadi inkişafın təmin edilməsi üçün lazım olan əsas infrastruktur ilə bağlı bu günə qədər kredit verilməsi ilə elektrik stansiyasının yenidən qurulması kimi yardımlar həyata keçirilmişdir. Bundan sonra iqtisadi fəaliyyətin təməli olacaq əsas infrastrukturun (elektrik, informasiya, liman, dəmir yolu və s.) qurulması, bunların maneəsiz həyata keçirilməsi üçün gərəkli olan sistemin daha da inkişafına töhfə verəcək effektiv əməkdaşlıq yollarını nəzərdən keçirəcəyik. Bu prinsiplərə uyğun olaraq, davamlı inkişaf hədəfi 7 (enerji) və hədəf 9-a (infrastruktur, sənayeləşmə, innovasiya) nail olunmasına töhfə verəcəyik. |

| Əməkdaşlıq proqramının adı | Əməkdaşlıq proqramının qısa məzmunu | Layihənin adı | Plan | İcra dövrü: 2019 Maliyyə ilindən əvvəl | 2020 Maliyyə ili | 2021 Maliyyə ili | 2022 Maliyyə ili | 2023 Maliyyə ili | 2024 Maliyyə ili | Yardımın məbləği (100 milyon yen) | Qeydlər |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| İqtisadi infrastrukturun qurulması proqramı | Sovet dövründə qurulmuş infrastruktur köhnəldiyi üçün enerji, nəqliyyat sektoru başda olmaqla infrastrukturun qurulması | Elektrik enerjisi sektorunda məlumat toplanması və yoxlama-araşdırma | Məlumat toplama, araşdırma | | | | | | | 0.80 | |
| | | Təbii ehtiyatlar və enerji sahəsi üzrə təlim | Mövzu üzrə təlim | | | | | | | | |
| | | Nəqliyyat infrastrukturu sahəsi üzrə təlim | Mövzu üzrə təlim | | | | | | | | |

| | |
|---|---|
| Prioritet sahə 2 (Orta hədəf) | Sənayenin inkişafı üçün infrastrukturun qurulması və sənaye sahəsində insan resurslarının yetişdirilməsi |
| İnkişaf məsələsi 2 (Kiçik hədəf)<br><br>Şəhər və bölgələr arasında fərqlərin aradan qaldırılması və təbii ehtiyatlardan asılılıqdan çıxmaq üçün sənayenin inkişafına gərəkli olan infrastrukturun qurulması və sənaye sahəsində insan resurslarının yetişdirilməsi | 【Hazırki vəziyyət və qarşıda duran məsələ】<br>Azərbaycan neft kimi təbii ehtiyatların təsiri ilə sürətli iqtisadi inkişafa nail olsa da, şəhər və bölgələr arasında fərqlər, gəlir fərqləri aydın görünür. Bundan əlavə, təbii ehtiyatlardan həddən çox asılılıq olması səbəbindən qeyri-neft sektorunun inkişafı geri qalmış, son illərdə neftin qiymətinin enməsi və istehsalın azalmasının güclü təsirinə məruz qalmışdır. Davamlı iqtisadi inkişafa nail olmaq üçün təbii ehtiyatlardan asılı iqtisadiyyatdan çıxmaq və sənaye sahəsində bazarın tələblərinə uyğun insan resurslarının yetişdirilməsi həll olunması vacib məsələyə çevrilmişdir.<br><br>【İnkişaf məsələsi ilə bağlı strategiya】<br>Şəhər və bölgələr arasında fərqlərin aradan qaldırılması və təbii ehtiyatlardan asılılıqdan çıxmaq məqsədilə rəqabətə davamlı iqtisadi inkişafa nail olmaq üçün sənayenin şaxələndirilməsini əsas tutan daxili iqtisadiyyatın inkişafına baza olacaq kiçik və orta biznesin qurulması və inkişafına dəstək, investisiya mühitinin qurulması, kənd təsərrüfatı və kəndlərin inkişafı, turizm kimi sahələrə dəstək veriləcək. Bu prinsiplər vasitəsilə, davamlı inkişaf hədəfi 8 (iqtisadi inkişaf və məşğulluq), hədəf 9 (infrastruktur, sənayeləşmə, innovasiya) və hədəf 12-yə (davamlı istehlak və istehsal) nail olmağa töhfə vermiş olacağıq. |

| Əməkdaşlıq proqramının adı | Əməkdaşlıq proqramının qısa məzmunu | Layihənin adı | Plan | İcra dövrü: 2019 Maliyyə ilindən | 2020 Maliyyə ili | 2021 Maliyyə ili | 2022 Maliyyə ili | 2023 Maliyyə ili | 2024 Maliyyə ili | Yardımın məbləği (100 milyon yen) | Qeydlər |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Sənayenin inkişafı üçün əsas infrastrukturun qurulması və sənaye sahəsində insan resurslarının yetişdirilməsi | Şəhər və bölgələr arasında fərqlərin aradan qaldırılması və təbii ehtiyatlardan asılılıqdan çıxmaq məqsədilə yüksək texnoloji yeniliklər və insan resurslarının yetişdirilməsi ilə dəstəklənən rəqabətə davamlı iqtisadi inkişafa nail olmaq üçün sənayenin şaxələndirilməsini əsas tutan daxili iqtisadiyyatın inkişafına baza olacaq kiçik və orta biznesin qurulması və inkişafına dəstək, investisiya mühitinin qurulması, kənd təsərrüfatı və kəndlərin inkişafı, turizm kimi sahələrə dəstək veriləcək. | Özəl sektorun inkişafı və kiçik və orta sahibkarlığın inkişafı ilə bağlı təlim | Mövzu üzrə təlim | | | | | | | | |
| | | Kənd təsərrüfatı və kəndlərin inkişafı ilə bağlı təlim | Mövzu üzrə təlim | | | | | | | | |
| | | Turizm sektoru ilə bağlı təlim | Ölkə üzrə təlim, Mövzu üzrə təlim | | | | | | | | |
| | | Sənaye texnologiyası təhsili ilə bağlı təlim | Mövzu üzrə təlim | | | | | | | | |

| Prioritet sahə 3 (Orta hədəf) | Sosial xidmətlərin təkmilləşdirilməsi |
|---|---|

**İnkişaf məsələsi 3 (Kiçik hədəf)**

**Əsas sosial xidmətlər (səhiyyə, təhsil, su və kanalizasiya) və fəlakətlərə cavabvermə qabiliyyətinin təkmilləşdirilməsi**

【 Hazırki vəziyyət və qarşıda duran məsələ】
Səhiyyə və tibb, təhsil və təmiz suyun təmin edilməsi, ətraf mühitlə bağlı tədbirlər kimi əsas sosial xidmətlərin təkmilləşdirilməsinə töhfə verəcək, əhalinin yaşayış infrastrukturu və keyfiyyətinin yaxşılaşdırılmasına yönəlmiş sosial xidmətlərin göstərilməsi üçün gərəkli olan infrastrukturun qurulmasına dəstək göstərilməsinə ehtiyac vardır. Xüsusən, bölgələrdə yaşayışın sabitləşməsi üçün əhalinin yaşayış mühitinin yaxşılaşdırılmasına töhfə verəcək yardımların edilməsi vacibdir.

【İnkişaf məsələsi ilə bağlı strategiya】
İnsan təhlükəsizliyi baxımından yoxsul təbəqənin birbaşa fayda görəcəyi səhiyyə, təhsil, su və kanalizasiya sistemi, tullantıların idarə edilməsi (ətraf mühit) kimi sosial xidmətlərin keyfiyyəti və sosial xidmətlərə əlçatanlığın yaxşılaşdırılması üçün əməkdaşlığa ehtiyac var. Bundan əlavə, yoxsul təbəqənin fəlakətlərə qarşı həssaslığını azaltmaq və davamlı iqtisadi inkişafa nail olmaq üçün dəstəyə ehtiyac var. Tibb, su və kanalizasiya ilə bağlı təchizat ilə yanaşı texniki əməkdaşlıq vasitəsilə infrastrukturun saxlanması və idarə edilməsi qabiliyyətinin təkmilləşdirilməsi kimi yardımlar da göstərərək, effektiv əməkdaşlıq etməyə çalışacağıq. Bu prinsiplər vasitəsilə, davamlı inkişaf hədəfi 1 (yoxsulluq), hədəf 3 (səhiyyə), hədəf 4 (təhsil), hədəf 6 (su və gigiyena), hədəf 11 (davamlı şəhər), hədəf 12-yə (davamlı istehlak və istehsal) nail olunmasına töhfə verəcəyik.

| Əməkdaşlıq proqramının adı | Əməkdaşlıq proqramının qısa məzmunu | Layihənin adı | Plan | İcra dövrü: 2019 Maliyyə ilindən əvvəl | 2020 Maliyyə ili | 2021 Maliyyə ili | 2022 Maliyyə ili | 2023 Maliyyə ili | 2024 Maliyyə ili | Yardımın məbləği (100 milyon yen) | Qeydlər |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Əsas sosial xidmətlər (səhiyyə, təhsil, su və kanalizasiya) və fəlakətlərə cavabvermə qabiliyyətinin təkmilləşdirilməsi üçün proqramlar, iqtisadi insfrastrukturun qurulması proqramı | Yoxsul təbəqənin birbaşa fayda gördüyü səhiyyə, təhsil, su və kanalizasiya kimi əsas sosial xidmətlərin təkmilləşdirilməsinə yönəlmiş insan resurslarınının yetişdirilməsini əsas tutan əməkdaşlıq həyata keçirməklə yanaşı, fəlakətlərə qarşı tədbirlərin gücləndirilməsi ilə fəlakətlərə qarşı daha həsas olan yoxsul təbəqənin yaşayışını qoruyaraq yoxsulluğun aradan qaldırılmasına dəstək olmaq. | Rayonlarda su təchizatı və kanalizasiya sisteminin qurulması layihəsi | Kredit | ▬ | ▬ | | | | | 328.51 | |
| | | Su və kanalizasiya sistemi ilə bağlı təlim | Mövzu üzrə təlim | ▬ | ▬ | | | | | | |
| | | Fəlakətlərin qarşısının alınması sahəsində təlim | Mövzu üzrə təlim | ▬ | ▬ | | | | | | |
| | | Ətraf mühit sahəsində təlim | Ölkə üzrə təlim, Mövzu üzrə təlim | ▬ | ▬ | | | | | | |
| | | Səhiyyə sahəsində təlim | Ölkə üzrə təlim, Mövzu üzrə təlim | ▬ | ▬ | | | | | | |
| | | Təhsil sahəsində təlim | Ölkə üzrə təlim | ▬ | ▬ | | | | | | |
| | | Əsas sosial xidmətlər sahəsində ot kökləri və insan təhlükəsizliyi qrant yardımı | Ot kökləri qrant yardımı | ▬ | ▬ | | | | | 0.89 | |